Aqrar Xidmətlər Agentliyi

# ALMA MEYVƏYEYƏNİ
## (Cydia pomonella)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Zərərverici kicik, boz kəpənəkdir. Alma meyvəyeyəni axırıncı yaşda olan tırtıl fazasında qışlayır. Bu zərərverici tumlu və çəyirdəkli meyvə ağaclarına böyük zərər vurur. Bir tırtıl yaşadığı 25 – 30 gün ərzində 2 – 4 meyvə zədələyə bilir. Zədələnmiş meyvələr yerə tökülür. Bu əsasən daha cox ikinci nəsilin tırtıllarının vurduğu ziyandır. Alma meyvəyeyəni mövsüm ərzində 2 – 3 nəsil verir.

## Mübarizə tədbirləri

- Tumurcuqların sakitlik dövründə (noyabr, mart aylarında) xəstə və quru budaqlar kəsilir, gövdələr quru qabıqdan təmizlənir, çürümüş meyvə quruları, zərərvericilərin yuvaları, ağac tullantıları bağdan yığılıb kənar yerdə yandırılır.

**Təsiredici maddəsi** deltametrin (0,7 l/ha), malathion (1-3 l/ha), lambda-cyhalothrin (0,3-0,4 l/ha), indoxcarb (1,5-2 l/ha) və s. preparatların biri ilə kimyəvi mübarizə aparıla bilər. Məhsul yığımına 20 gün qalmış pestisidlərin istifadəsi dayandırılmalıdır.



**Yetkin fərd**



**Zədəsi**